UNUTMA!

Müstəqil Azərbaycanın 1991-1993-cü illərdə işğal olunmuş bölgələri

Sıra	Rayonların adı	Sahəsi	Kənd və digər yaşayış məntəqələrinin sayı	İşğal zamanı əhalinin sayı	İşğal olunduğu tarix	Şəhidlərin sayı	Milli Qəhrəmanların sayı
1	Xankəndi	302 kv.km	25 (25)	18 min nəfər	1991	102 nəfər	___
2	Xocavənd	1458 kv.km	78 (78)	10 min nəfər	18.02.1992	145 nəfər	___
3	Xocalı	926 kv.km	65 (65)	12 min nəfər	26.02.1992	3200 (613)	10 nəfər
4	Şuşa	289 kv.km	30 (30)	25 min nəfər	08.05.1992	250 nəfər	3 nəfər
5	Laçın	1835 kv.km	126 (126)	60 min nəfər	18.05.1992	262 nəfər	5 nəfər
6	Kəlbəcər	1936 kv.km	124 (124)	68 min nəfər	02.04.1993	200 nəfər	2 nəfər
7	Ağdərə	1705 kv.km	58 (58)	49 min nəfər	17.06.1993	145 nəfər	___
8	Ağdam	1094 kv.km	121 (80)	150 min nəfər	23.07.1993	5000 nəfər	15 nəfər
9	Cəbrayıl	1050 kv.km	90 (89)	59 min nəfər	23.08.1993	381 nəfər	6 nəfər
10	Füzuli	1392 kv.km	75 (51)	100 min nəfər	23.08.1993	1000 nəfər	8 nəfər
11	Qubadlı	802 kv.km	95 (95)	30 min nəfər	31.08.1993	200 nəfər	10 nəfər
12	Zəngilan	707 kv.km	83 (83)	35 min nəfər	30.10.1993	200 nəfər	3 nəfər
	Cəmi:	13490 kv.km	970	616 min nəfər	___	10085 nəfər	62 nəfər

Qeyd: *Mötərizədə göstərilmiş rəqəmlər ermənilər tərəfindən işğal olunmuş kəndlərin sayını əks etdirir.*

İNTİZAMLI HƏRBİ QULLUQÇU – ORDU QURUCULUĞUNDA MÜHÜM AMİLDİR

Daxili Qoşunların sıralarında xidmət edən hər bir hərbi qulluqçu daxili qayda-qanunları rəhbər tutaraq, nizam-intizamlı, cəsur, tərbiyəli, səmimi, vicdanlı, məsuliyyətli insan, vətənpərvər, millətsevər vətəndaş olmalıdır.

Qanun qarşısında "bərabərlik prinsipi"nə əsasən, zabitlər hərbi intizamın pozulmamasına görə şəxsi məsuliyyətlilik baxımından intizamlı, cəsarətli, doğruçu olmalı, hərbi xidmətini layqatlıq yerinə yetirməli, Vətənini müdafiə etməli, həmçinin, yüksək bilik, bacarıq və vərdişlərə yiyələnməli, peşəkarlıq, etik normalara riayət olunmasının vacibliyi, şəxsləraraası münasibətlərin düzgün tənzimlənməsi aspektində hərbi işin sistemli və məqsədyönlü şəkildə aparılmasına şərait yaratmalıdırlar.

Daxili Qoşunların inkişafının müasir mərhələsində aparılan işlər yüksək döyüş hazırlığının təmin edilməsinə, hərbi qulluqçuların Vətənə, Azərbaycan xalqına hədsiz sədaqət, daimi peşə hazırlığının inkişaf etdirilməsinə və tapşırılmış işə yüksək məsuliyyət hissi tərbiyə edilməsinə yönəldilir. Bu baxımdan Ali Hərbi Məktəbdə təlim-tərbiyə prosesinin əsas məzmunu zabitin (pedaqoqun) təşkil etdiyi tərbiyə işi fəaliyyətində kursantın idraki, ictimai, əmək, bədii, fiziki, estetik tərbiyəsi və fəal ünsiyyət mövqeyinin təmin olunması, həmçinin, əxlaqi keyfiyyətlərin ardıcıl mənimsənilməsi və onların kursantlarda davranış normalarına çevrilməsi, əxlaqi keyfiyyətlərə yiyələnməsində zabitlərin (pedaqoqların) tərbiyəvi təsiri, düzlük və doğruçluq, dostluq və yoldaşlıq, hörmət, qayğı və diqqət, vətənpərvərlik və fədakarlıq, soykökünə bağlılıq, mərdlik və cəsurluq və s. keyfiyyətlərin, eləcə də kursantların mənəvi şüurunun, mənəvi hisslərinin, davranış və vərdişlərinin formalaşdırılması istiqamətinə yönəldilir.

Kursantların mənəvi tərbiyəsində yaş və fərdi psixoloji xüsusiyyətlərin nəzərə alınması, zehni qüvvələrin və zehni təfəkkürün məqsədyönlü inkişaf etdirilməsi əsas götürülür.

Təlim zamanı tərbiyənin prinsip, metod və vasitələrinin birliyi, hərtərəfliliyi hərbi qulluqçunun (kursantın) tərbiyə, davranış və əxlaqi işinə kompleks yanaşma zamanı (təlim və tədrisdə, ailədə, asudə vaxtda) mühüm şərtdir. Tərbiyə prosesinə kompleks yanaşma prinsipi aşağıdakı cəhətlərin nəzərə alınmasını tələb edir:

- *Şəxsiyyətin təşəkkül tapıb formalaşmasına kömək göstərən bütün amillərin vəhdət şəkildə tətbiq edilməsi;*
- *Ailədə, hərbi hissələrdə (Ali Hərbi Məktəbdə) asudə vaxtlarda aparılan tərbiyə işində qarşılıqlı təsirdə varislik;*
- *Tərbiyenin tərkib hissələrinin vahidliyi;*
- *Məqsəd, prinsip və metodların vəhdətdə götürülməsi;*
- *Hərbi qulluqçularla (əsgər və kursantlarla) iş prosesində tarixi təcrübə və tərbiyə ənənələrinin müasirliklə uzlaşdırılması;*
- *Tərbiyə vasitələrinin planlaşdırılması və əlaqələndirilməsi;*
- *Tərbiyə işinə nəzarət və onun nəticəsinin öyrənilməsi.*

Yuxarıda sadaladığımız məqsədə çatmaq üçün zabitin (pedaqoqun) verdiyi düzgün tələb hərbi kollektivin digər üzvləri tərəfindən də müdafiə edilməli və kollektivin təşkili, tərbiyəsi, nizam-intizamı son dərəcə vacib məsələ kimi qarşıda dayanmalı, gənc nəslin kollektiv üçün ümumi mənafelər naminə tərbiyə olunması qayğısına qalınmalıdır.

Hərbi hissədə intizamsızlıq, kobudluq, qarşıdakı insanın layqatına toxunmaq və ya təhqir etmək kollektivdəki şəxsləraraası münasibətlərin normal inkişafına mənfi təsir göstərərək, qarşılıqlı əlaqə və münasibətlərin qurulmasında əngəllik və problemlər yarada bilər. Kollektivdə yoldaşlarla nəzakətli olmaq, əxlaq normalarına uyğun rəftar etmək, onlara diqqət və qayğı ilə yanaşmaq, kədər və sevincinə şərik olmaq ən qiymətli keyfiyyətlərdən sayılır. Hər bir hadisə əxlaqi şüur, davranış, nəzakət və etik qaydaların pozulması bir sıra mənfi halların üzə çıxmasına səbəb olur. Xüsusilə də hərbi hissədə xoş rəftar, etik və davranış gözəlliyi bütün hərbi qulluqçular üçün zəruridir. Yadda saxlamaq lazımdır ki, hər - bi kollektivdə qarşılıqlı əlaqə və münasibətlərin qurulmasında əx - laqi və etik davranış normalarının tərbiyə edilməsinə özünütərbiyə və özünütənzimləmənin (öz üzə - rinizdə nəzarət təşkil etməlisiniz, yəni hər hansı bir anlaşılmazlığı qalmaqalla deyil, ağılla, təmkinlə yoluna qoymaq olar) rolu olduqca böyükdür. Təbii ki, nizam-intizam, mədəni davranış qaydaları müntəzəm təkrarlanarsa, adət şəklinə düşər. İntizamlı olmaq üçün ilk növbədə qarşılıqlı münasibətlərin mədəniyyətini yüksəltmək, münaqişə dairəsini genişləndirməmək məsələsidir. Qayda-qanunların isə haddi-hüdudu yoxdur, o zaman və məkandan asılı olaraq dəyişir, müxtəlif olur. Yadda saxlamaq lazımdır ki, heç bir kollektivdə əlverişli, sağlam psixoloji iqlim özünə əmələ gəlmir, o cəmiyyət, məsuliyyət və borcunu düzgün başa düşən ağıllı, tərbiyəli, intizamlı, həssas insanların gündəlik səyi ilə yaranır.

Hər bir zabit bəlayinə olanların ciddi hərbi intizamın zəruliyini şüurlu surətdə dərk etmələrinə çalışmalı, sağlam mənəvi-psixoloji iqlimin yaradılması və qorunub saxlanılmasına, neqativ və xəsarətalma hallarının qarşısının vaxtında alınmasına və onların yaranmasına səbəb ola biləcək amilləri vaxtında aşkar edib aradan qaldırmağa xüsusi diqqət yetirməli və intizamı pozanları (ədalətlə yanaşaraq düzgün surətdə) təsir tədbiri olaraq cəzalandırmağa səy göstərməlidir. Belə ki, intizam cəzası hərbi qulluqçunun tərbiyə edilməsi tədbiri kimi tərəddüən hərəkət və hadisənin dərəcəsinə uyğun olaraq tətbiq edilmalı və intizamın möhkəmləndirilməsinə xidmət etməlidir. Eyni zamanda, nümunəvi intizamı ilə fərqlənənlərə həvəsləndirmə mükafatları tətbiq edilərkən hərbi qulluqçulara tərbiyəvi təsir göstərilir. Qeyd etmək yerinə düşər ki, əsgərin (kursantın) mənəvi vəziyyətinin və hərbi intizamının möhkəmləndirilməsində tərbiyə işinin təsiri olduqca böyükdür.

Hərbi bölmələrdə tərbiyə işinin düzgün təşkili, sağlam mənəvi-psixoloji mühitin qorunub saxlanılması, döyüşə daimi hazırlığın və döyüş qabiliyyətinin yüksəldilməsi, təlimlərin müvəffəqiyyətlə keçirilməsi, qan yaddaşımız, Vətənimizin düşmənlərinə nifrət, igidlik nümunələrini təbliğ etmək, neyin bahasına olursa-olsun torpaqlarımızın düşmən tapdağından azad edilməsi kimi hissləri gücləndirir, şəxsi heyətin hərbi-vətənpərvərlik, ümumbəşəri dəyərlər, milli, tarixi adət-ənənələr ruhunda tərbiyə olunması məqsədi daşıyır.

M.Məmmədova,
Ali Hərbi Məktəbin tərbiyə işləri üzrə bölməsində təlimatçı-psixoloq

NARKOMANİYA - İNSAN HƏYATINI MƏHVƏ APARAN "AĞ ÖLÜM"

Narkomaniya insanları sağalmaz xəstəliklər məngənəsində boğan "ağ ölüm"dür. Beynəlxalq Səhiyyə Təşkilatının məlumatına görə, bu gün dünya əhalisinin 250 milyonu planetimizin ən qlobal problemlərindən birinə çevrilən, insanları ölümün ağuşuna atan, genofonda sarsıdıcı zərbələr endirən bu ağır bəlanın əzabını yaşamaqdadır ki, onun da 47 milyonu Latın Amerikası ölkələrinin payına düşür.

Bu gün təkcə Meksikada narkomanların sayı 1 milyon 200 mini ötüb. Avropa Birliyi ölkələrinə gəldikdə isə orada 750 minə yaxın insan narkotik maddələrdən istifadə nəticəsində əlləri ilə öz bədən əzalarına ölüm hökmü yazmaqdadır. MDB və Asiya ölkələri də Qərbdən geri qalmır. Bu gün orada 26 milyondan çox insan "ağ ölüm"ün iti caynaqlarında çırpınmaqdadır.

Mütəxəssislərin fikrinca, narkotik ticarətçiliyi neft və silah alverindən sonra dünyada ən çox gəlir gətirən sahədir. Bəzi ölkələrdə, xüsusilə "narkomaniyanın vətəni" adlanan Əfqanıstanda onun meydanının ilbəil genişlənməsinə səbəb də elə budur. Əgər dünya birliyi ölkələri bəşəriyyəti ağır fəlakətlərə sürükləyən bu dəhşətli bəlanın inkişaf sürətinin qarşısını ala bilməsə, o yaxın gələcəkdə böyük ictimai faciələrə gətirib çıxara bilər. Bu gün narkomaniya və narkobiznes təkcə ayrı-ayrı insanların sağlamlığına, mənəviyyatına deyil, dünya iqtisadiyyatına da ağır zərbə vurmaqdadır. Mütəxəssislərin hesablamalarına görə, narkotiklərin qanunsuz dövriyyəsindən hər il on milyardlarla dollar gəlir götürülür və bu pul xalqların həyat səviyyəsinin yaxşılaşmasına, bəzi imkansız ölkələrin iqtisadi böhrandan xilasına, böyük tikinti-quruculuq işlərinə deyil, yeni müharibə və münaqişə ocaqlarının, nüvə bazalarının, ayrı-ayrı terrorçu marxalzaların, mütəşəkkil cinayətkar qrupların yaradılmasına, silah alverinin gücləndirilməsinə və digər cinayətkar aksiyalara sərf olunur. Həm də bu narkomaniyaya və narkobiznesə qarşı mübarizə ilə əlaqədar bəşəri qanunlar qəbul etmiş superdövlətlərin gözləri qarşısında baş verir.

Narkotik maddə qəbul edən insanlar özləri də bilmədən orqanlarını iflasa uğratdıqlarından yoluxucu xəstəlik onların iç dünyasına asanlıqla daxil olur. Narkotik maddələrin çoxu qana şprislə ötürüldüyündən və narkoman qrupları daxilində eyni iynədən istifadə edildiyindən onların müxtəlif xəstəliklərə yoluxma halları daha asanlıqla baş verir. Narkotikanın ən çox yayılmış növləri xaş-xaş, kokain, naşə, metazon, tiryək, marixuana və heroindir. Ən geci saat yarımdan sonra tədricən öz təsirini göstərməyə başlayan bu narkotik maddələri bir-iki dəfə qəbul etdikdən sonra insan onlara öyrəşir, vaxtı çatanda qəbul etmədikdə bədəndə dəhşətli ağrılar başlayır. Hətta bəziləri narkotik maddə tapa bilmədiklərindən, ağrılara dözməyib özlərinə qəsd etmək məcburiyyətində qalırlar. Naşə psixi xəstəliklər yaratdığından və narkomanlarda qorxu sindromu çox olduğundan onlar daim qaçıb insanlardan uzaqlaşmağa çalışırlar. Narkotik maddə təsə onu qəbul edən adamı məhv etmir, onun ailə üzvlərinin də sağlamlığına mənfi təsir göstərir. Onların uşaqları fiziki və psixi çatışmazlıqlarla dünyaya gəlirlər. Son illər kimyəvi laboratoriyalarda hazırlanan yeni sintetik narkotik maddələr xüsusilə təhlükəlidir. Çünki o insanı asanlıqla özünə alışdırır, tezliklə aridib çöpə döndərir və tədricən ölüm yatağına doğru sürükləyir. Ölümün sindromu olan narkomaniya ilə mübarizə aparmaq o qədər də asan məsələ deyil. Narkotik maddə alverçiləri bir növ "ölüm kabusları"dır. Onlar, əsasən, uşaqların və gənclərin cəmləşdiyi yerlərdə olur, pul qazanmaq xatirinə hərnin məhsulları təklif etməklə, onları ölümə aparan bu pis vərdişə alışdırmağa çalışırlar. Pulunu da avvəlcədən yox, çox vaxt onları bu ağır xəstəliyə düçar etdikdən sonra istəyirlər. Təze narkoman da maddi cəhətdən imkansız olduğundan xərci ödəmək və yeni narkotik maddə almaq üçün hətta oğurluq yoluna qədəm qoymaq məcburiyyətində qalır. Narkotik aclığı zamanı orqanizmdə baş verən dəyişikliklər əsasən əzələlərin gərilməsi ilə müşahidə olunur. Həmin gərginlik bir qədər sümük ağrılarıdır. Sonra yuxulu durum başlanır, ahval dəyişir, bədəndə ağrılaşmalar, ağızda qurluq yaranır. Daha sonra ürəkbulanma, qusma, əsnəmə, hərarət, yuxusuzluq və ən əsası, neyin bahasına olursa-olsun, yenidən oriat (morfin və heroin) qəbul etmək istəyi... Tiryəkdən istifadə edənlər, adətən, tənəffüsün qafil dayanmasından dünyasını dəyişirlər. "Xalis mal", yəni heç bir qarışığı olmayan narkotik maddə qəbul olunarsa, insan zəhərin təsirindən dərhal dünyasını dəyişə bilər. Ən dəhşətlisi odur ki, bir neçə dəqiqə ərzində baş-beyin zədələnir və bununla da həmin şəxs şikəstlik əzabına düçar olur. Belə halda insan düşünmək, hərəkət etmək, reaksiya vermək qabiliyyətini itirir, danışmaq və mükəllif əşyalardan istifadə etmək imkanından məhrum olur. Bu dəhşətli vəziyyət illərlə davam edə bilər. Çünki o müalicəsi mümkün olmayan bir xəstəlikdir!

BMT-nin 1987-ci il Konvensiyasına daxil olan ölkələrin "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" Bəyannaməsinə əsasən, artıq 29 ildir ki, dünya əhalisi 26 iyunu "Narkomaniya və narkotiklərin qeyri-qanuni dövriyyəsinə qarşı ümumdünya mübarizə günü" kimi qeyd etməkdədir. Ayrı-ayrı dövlətlər narkotiklərin qanunsuz dövriyyəsi ilə səmərəli mübarizə üsullarını və narkomanlığın müalicə metodlarını təkmilləşdirmək sahəsində saylarını artırıb, insanları sağalmaz xəstəliklərə düçar edib, onları son nəticədə aqressivliyə, cinayətkarlığa və ölüm hallarına gətirib çıxaran bu facia sindromuna qarşı istər fərdi şəkildə, istərsə də beynəlxalq əməkdaşlıq çərçivəsində mübarizə aparsalar da, dünya üzrə narkomaniya adlı bu cəhənnəm əzabına düçar olanların sayı ilbəil artmaqdadır.

Azərbaycan "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" Beynəlxalq Vyana Konvensiyasına 1992-ci ildə qoşulsa da, narkotizmlə və narkobizneslə mübarizənin əsası ölkə tarixində ilk dəfə olaraq Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Dünyanın başı üstündə dolaşan bu dəhşətli ölüm kabusuna qarşı mübarizəni ümumdövlət vəzifəsi hesab edən o müdrik şəxsiyyətin 1996-cı il avqustun 26-da "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri haqqında" imzaladığı fərmandan sonra bu problemin həlli üçün həyata keçirilən tədbirlər kompleksi keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Həmin fərman əsasında 2000-ci ilədək narkomanlığın yayılmasına, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə ümummilli Proqram hazırlanmış, həmin bəşəri bəlaya qarşı mübarizə məqsədilə Dövlət Komissiyası yaradılmışdır. Azərbaycan 1998-ci ildə BMT-nin "Narkotik vasitələr haqqında" 1961-ci il və "Psixotrop maddələr haqqında" 1971-ci il konvensiyalarına da qoşulmuş, Milli Məclisin 18 iyun 1999-cu il tarixdə qəbul etdiyi Azərbaycan Respublikasının qanununa müvafiq olaraq, ölkəmizdə narkotik tərkibli bitkilərin kultivasiyası, narkotik vasitələrin və psixotrop maddələrin istehsalı, dərman preparatlarının və xammalın hazırlanması qadağan edilmişdir. Ulu Öndərin 15 iyul 2000-ci il tarixli fərmanı ilə 2000-2006-cı illərədək narkomanlığın yayılmasına, narkotik vasitələrin, psixotrop maddələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə üzrə daha bir Milli Proqram qəbul edilmiş, bu proqramın tələblərindən irəli gələn məsələlərin həlli, həmçinin aidiyyəti dövlət orqanları arasında qarşılıqlı əlaqələrin təşkil edilməsi və nəzarət mexanizminin həyata keçirilməsi məqsədilə xüsusi Dövlət Komissiyası yaradılmışdır. Azərbaycan 2000-ci ildə Avropa Şurasının tamhüquqlu üzvləri sırasında öz layiqli yerini tutduqdan sonra Avropa və dünya birliyinə inteqrasiya zəminində bu sahədəki fəaliyyətini uğurla davam etdirmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2005 və 2007-ci illərdə verdiyi tarixi fərman və sərəncamlar da "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Dövlət Proqramı"nın həyata keçirilməsi istiqamətində atılmış uğurlu addımlar idi. 2011-ci il oktyabrın 17-də BMT-nin dəstəyi ilə "Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə" mövzusunda paytaxtımızda keçirilən ikigünlük beynəlxalq konfrans da bu cəhətdən böyük əhəmiyyət kəsb etmişdir. Azərbaycan Respublikası Prezidentinin "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi barədə imzaladığı sərəncamı bu dəhşətli bəlaya qarşı mübarizə sahəsində atılmış ən xeyirxah addımı kimi dəyərləndirmək gərəkdir.

Narkotizmlə və narkobizneslə mübarizə hər şeydən öncə ölkəmizin erazi bütövlüyünün qorunması, onun suverenliyinin bərpası, cəmiyyətin sağlamlığının, dinclik və əmin-amanlığının mühafizəsi zərurətindən irəli gəlir. Çünki narkotizmlə və narkobizneslə mübarizə terrorizmlə mübarizanın tərkib hissəsidir. Bu sahədə ölkəmizdə normativ hüquqi baza, müvafiq təşkilati strukturlar yaradıb, milli proqramlar qəbul edilib.

Artıq 24 ildir ki, Azərbaycan narkotizmin Yer kürəsində yayılmasının qarşısının alınmasına dair BMT-nin üç bəşəri konvensiyası ətrafında dünya ölkələri ilə sıx əməkdaşlıq şəraitində, vahid əqidə bayrağı altında birləşərək yeni mübarizə metodları hazırlamaqda, bəşər sivilizasiyasını lərzəyə gətirən bu ölüm kabusunun qarşısının alınmasında birgə say, hünər və əzmkarlıq nümayiş etdirməkdədir. Narkotizmlə mübarizə uzunmüddətli və çoxşaxəli, geniş maliyyə vəsaiti tələb edən dinamik bir proses olsa da, öz ictimai təhlükəliliyi ilə fərqlənən, həmişə gizli şəraitdə baş verdiyi üçün ictimai nəzarətdən kənarda qalıb durmadan artan bu cinayətkar prosese qarşı səylə mübarizə aparmaq hər bir Azərbaycan vətəndaşının ümdə vəzifəsinə çevrilməli, gənclər və yeniyetmələr arasında narkotiklərə aludəçilik hallarının artmasının qarşısı qətiyyətlə alınmalıdır.

Allah rəhmət eləsin

Ali Hərbi Məktəbin şəxsi heyəti leytenant Ramin İbrahimova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17077 saylı hərbi hissənin şəxsi heyəti leytenant Vüqar Cəfərova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17077 saylı hərbi hissənin şəxsi heyəti gizir Nigar İsmayılova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.

Redaktor: leytenant X.Tağıyeva

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.

Əlaqə telefonları: 560-22-63, 590-65-26

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000

Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.
İlham ƏLİYEV

№ 04 (470)
29 fevral
2016-cı il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

ƏSGƏR

Azərbaycan Respublikası DİN-in Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN İRAN İSLAM RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ

İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin dəvəti ilə fevralın 23-də Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi etdiyi yüksək səviyyəli nümayəndə heyəti Tehranda rəsmi səfərdə olub.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tehranda rəsmi qarşılanma mərasimi keçirilib.

Azərbaycan Prezidenti İlham Əliyev süvari dəstəsinin müşayiəti ilə "Sədabad" sarayına gəlib.

İran Prezidenti Həsən Ruhani Azərbaycan Prezidenti İlham Əliyevi qarşılayıb.

Səfər çərçivəsində Prezident İlham Əliyev və Prezident Həsən Ruhaninin iştirakı ilə 11 sənəd imzalanıb.

Sonra İran İslam Respublikasının Prezidenti Həsən Ruhani və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mətbuata bəyanatlarla çıxış ediblər.

Dövlət başçısı deyib: "İlk növbədə, dəvətə, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə sizə öz minnətdarlığımı bildirirəm. Yenidən qardaş İran torpağında olmağımdan çox məmnunam. Fürsətdən istifadə edərək bir daha İrana qarşı qoyulmuş sanksiyaların aradan qaldırılması münasibətilə sizi və bütün İran xalqını təbrik edirəm. Azərbaycan həmişə bu sanksiyaların əleyhinə olub və həmişə öz sözünü bütün yüksək səviyyədən ifadə edib. Cənab Prezident, siz müzakirə etdiyimiz bütün məsələləri çox geniş mətbuat nümayəndələrinə çatdırdınız. Doğrudan da bu gün bir çox məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı və fikir birliyi vəziflələri uğurla yerinə yetirir.

Daxili Qoşunların Komandanı onu da bildirib ki, sıralarımıza qəbul edilmiş əsgərlərin kazarma-məişət şəraitinin yaxşılaşdırılması, onların geyim təminatı, qida rasionunun keyfiyyətinin artırılması və digər məsələlər komandanlıq tərəfindən daim diqqət mərkəzində saxlanılır.

Övladları üçün yaradılmış hərtərəfli şəraitə görə ölkə Prezidentinə, Daxili İşlər Nazirliyinin rəhbərliyinə və Daxili Qoşunlar Komandanlığına minnətdarlıqlarını ifadə edən valideynlər övladlarının müddətli həqiqi hərbi xidməti başa vurduqdan sonra Daxili Qoşunlarda xidmətlərini davam etdirmək istəyində olduqlarını nəzərə çatdırıblar.

Bu istək və arzuları təqdirəlayiq hal kimi qiymətləndirən general-leytenant Ş.Məmmədov onların müraciətlərinin nəzərə alınacağını söyləyib və bu istiqamətdə konkret göstərişlər verib.

Mətbuat xidməti

İran İslam Respublikasının Prezidenti Həsən Ruhani Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşılayır

İran İslam Respublikasının Prezidenti Həsən Ruhani Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi nümayəndə heyəti ilə qəbul etdikdən sonra bir-birinin işinə qarışmamalıdır. Belə olan halda müharibələr də dayanacaq, qarşıdurmalar da azalacaq: "Bu gün siz də şahidsiniz ki, bir çox sənədlər imzalandı. Bu sənədlərin icrası bizim əlaqələrimizi daha da gücləndirəcək. Bir çox sahələr üzrə imzalanan sənədlər gələcək üçün yol göstərir. Bu sənədlərin mahiyyəti çox müsbətdir və onların bir hissəsi iktisadi əlaqələrə, bir hissəsi isə çoxtərəfli və regional əməkdaşlıqa xidmət göstərəcək. Şimal-Cənub Nəqliyyat Dəhlizinin yaradılması işində bu gün çox önəmli addımlar atılıb. Bu yolun istifadəyə verilməsi nəticəsində biz qitələri gözəl nəqliyyat infrastrukturu ilə birləşdirəcəyik. Bu ilin sonuna qədər Azərbaycanın üzərinə düşən vəzifə icra ediləcək və biz dəmir yolumuzu İran sərhədinə qədər çəkəcəyik.

Neft-qaz sektorunda çox gözəl perspektivlər var, İran Azərbaycanın neft-qaz yataqlarına investisiyalar qoyur və biz İran Respublikasının Prezidenti H.Ruhani qeyd etdi ki, son iki il ərzində bu bizim 5-ci görüşümüzdür. Azərbaycan Respublikasının Prezidenti fürsətdən istifadə edərək, İran İslam Respublikasının Prezidentini ölkəmizə rəsmi səfərə dəvət edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İran İslam Respublikasına rəsmi səfəri həmin gün başa çatıb.

AZƏRTAC-ın rəsmi xəbərləri əsasında

ƏSGƏR VƏLİDEYNLƏRİ İLƏ NÖVBƏTİ GÖRÜŞ SUMQAYIT ŞƏHƏRİNDƏ KEÇİRİLİB

Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov növbəti dəfə Daxili Qoşunların Sumqayıt şəhərində yerləşən "N" saylı hərbi hissəsində əsgər valideynləri ilə görüşdü. Hər zaman olduğu kimi, səmimi şəraitdə keçən görüşdə general-leytenant Ş.Məmmədov qeyd edib ki, bu gün Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına uyğun olaraq, DİN rəhbərliyinin nəzarəti altında Daxili Qoşunların xidməti-döyüş fəaliyyətinin təkmilləşdirilməsi, döyüş hazırlığının yüksəldilməsi, hərbi intizamın möhkəmləndirilməsi, maddi-texniki bazanın, həmçinin şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılmaqdadır. O, əlavə edib ki, qoşunlarda hərbi qulluqçular üçün yaradılmış hərtərəfli şərait bütün şəxsi heyəti daha fədakar xidmət etməyə ruhlandırır. Elə bunun nəticəsidir ki, ölkəmizdə sabitliyin, ictimai təhlükəsizliyin təmin edilməsində əsas qüvvələrdən biri sayılan Daxili Qoşunlar üzərinə düşən məsuliyyəti layiqincə yerinə yetirir.

Daxili Qoşunların Bakı şəhərinin Nərimanov rayonu ərazisində yerləşən 25031 saylı hərbi hissəsində xidmətə yeni qəbul edilmiş gənc əsgərlərin andiçmə mərasimi keçirilib.

Mərasimdə Daxili Qoşunların Veteranlar Şurasının üzvləri, əsgərlərin valideynləri və yaxın qohumları iştirak ediblər.

Mərasim Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin yad edilməsi ilə başlayıb. Nümunəvi-Göstərici Hərbi Orkestrin müşayiəti ilə Dövlət himni ifa edilib.

Hərbi hissənin komandiri polkovnik Salamat Cəfərov qısa nitqində gənc əsgərlərə hərbi andın mənasını, öz xalqına, Azərbaycan Respublikasına and içən hərbi qulluqçuların üzərinə düşən şərəfli və məsul vəzifələri, eləcə də Azərbaycan Respublikasının Konstitusiyasının müvafiq maddələrinin tələb - lərini xatırladıb.

O, gənc əsgərləri bu eləmətdar gün münasibəti ilə təbrik edərək, Azərbaycan əsgəri olmalarından həmişə qürur duymalarını, Vətənimizə layiqincə xidmət etməyi arzulayıb.

Gənc əsgərlər hərbi and içərək, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqlarına, bundan ötrü canlarını belə əsirgəməyəcəklərinə söz veriblər.

Sonra Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun hərbi andiçmə münasibətilə gənc əsgərlərə ünvanladığı təbriki çatdırılıb. Təbrikdə hər bir əsgərin Vətənə şərəflə xidmət edəcəyinə, Azərbaycan Respublikasının qanunlarına və hərbi nizamnamələrin tələblərinə ciddi riayət edəcəyinə, eləcə də yüksək döyüş hazırlığına və möhkəm nizam-intizama malik olacaqlarına əminlik ifadə olunub.

Daxili Qoşunların Komandanının 1-ci müavini - Qərargah rəisi general-mayor Şirin Xəlilov tərəfindən gün münasibətilə gənc əsgərləri təbrik edərək onlara öz tövsiyələrini verib.

Qeyd edib ki, hərbi andı qəbul edən hər bir hərbi qulluqçu birmənalı olaraq dark etməlidir ki, Vətənə, xalqa, dövlət və dövlətçiliyimizə sonsuz sədaqətlə xidmət etməlidir.

Çıxış edən Veteranlar Şurasının üzvləri, əsgər valideynləri də gənc əsgərləri səmimi qəlbdən təbrik edərək onlara xidmətlərində müvəffəqiyyətlər arzulayıblar.

Mərasim şəxsi heyətin sıra meydanından tərtənəli keçidi ilə başa çatıb.

Mətbuat xidməti

DAXİLİ QOŞUNLARDA GƏNC ƏSGƏRLƏR HƏRBİ ANDI QƏBUL EDİB

Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun hərbi andiçmə münasibətilə gənc əsgərlərə ünvanladığı təbriki çatdırılıb

gənc əsgərlərə ünvanladığı təbriki çatdırılıb. Təbrikdə hər bir əsgərin Vətənə şərəflə xidmət edəcəyinə, Azərbaycan Respublikasının qanunlarına və hərbi nizamnamələrin tələblərinə ciddi riayət edəcəyinə, eləcə də yüksək döyüş hazırlığına və möhkəm nizam-intizama malik olacaqlarına əminlik ifadə olunub.

Daxili Qoşunlar Komandanının 1-ci müavini - Qərargah rəisi general-mayor Şirin Xəlilov tərəfindən gün münasibətilə gənc əsgərləri təbrik edərək onlara öz tövsiyələrini verib.

Qeyd edib ki, hərbi andı qəbul edən hər bir hərbi qulluqçu birmənalı olaraq dark etməlidir ki, Vətənə, xalqa, dövlət və dövlətçiliyimizə sonsuz sədaqətlə xidmət etməlidir.

Çıxış edən Veteranlar Şurasının üzvləri, əsgər valideynləri də gənc əsgərləri səmimi qəlbdən təbrik edərək onlara xidmətlərində müvəffəqiyyətlər arzulayıblar.

Mərasim şəx

DAXİLİ QOŞUNLARDA XOCALI SOYQIRIMINA HƏSR EDİLMİŞ TƏDBİR KEÇİRİLİB

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti Administrasiyası rəhbərinin sərəncamı ilə "Xocalı soyqırımının iyirmi dördüncü ildönümünün keçirilməsinə dair tədbirlər planı" təsdiq edilib. Planda Bakının Xətai rayonunda, Goranboy rayon mərkəzində və Ağcakənd qəsəbəsində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidələrin önünə əklil qoyulması mərasimlərinin keçirilməsi, Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərində, nümayəndəliklərində, diaspor təşkilatlarında, dini konfessiya və qurumlarda, idarə və təşkilatlarda soyqırımla bağlı tədbirlərin keçirilməsi nəzərdə tutulub.

Bu münasibətlə, fevralın 19-da Daxili Qoşunların Baş İdarəsində də tədbir keçirilib. Tədbirdə Bakı Dövlət Universitetinin dosenti, tarix elmləri doktoru Əlamdar Şahverdiyev iştirak edib. Faciə haqqında məlumat verən Ə.Şahverdiyev ermənilərin Xocalı şəhərində dinc əhaliyə qarşı törətdiyi misli görünməmiş vəhşiliklərin bütövlükdə insanlığa, bəşəriyyətə qarşı yönəlmiş bir soyqırım aktı olduğu diqqətə çatdırıb. Bildirib ki, xalqımızın köksündə dərin bir yaraya çevrilən faciənin baş verməsindən illər keçməsinə baxmayaraq, bu cinayəti törədənlər, təəssüf ki, hələ də cəzasız qalıb. Ə.Şahverdiyev çıxışında Heydər Əliyev fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərliyi altında respublikamızın hüdudlarından kənarda bu gün də davam etdirilən "Xocalıya ədalət!" beynəlxalq təbliğat-təşviqat kampaniyasının uğurla nəticələnəcəyinə və ədalətin bərpa olunacağına əminliyini ifadə edib.

Qeyd etmək lazımdır ki, müvafiq göstərişə əsasən, fevralın 26-na kimi Ali Hərbi Məktəbdə və hərbi hissələrdə şəxsi heyətdə " 26 fevral- Xocalı soyqırımı insanlığa qarşı törədilmiş cinayətdir", "Xocalı soyqırımı XX əsrin faciəsidir", "Azərbaycana qarşı erməni genosidi" mövzularında təbliyə işi tədbirləri, televiziya verilişlərinin və videofilmlərin nümayişləri keçirilib, soyqırım qurbanlarının abidələri ziyarət edilib.

Həmçinin dislokasiya rayonlarında yerli icra hakimiyyəti orqanları tərəfindən keçirilən mərasimlərdə şəxsi heyətin iştirakı təmin olunub.

Mətbuat xidməti

AZƏRBAYCANIN HAQQ SƏSİ BÜTÜN DÜNYAYA YAYILACAQ: XOCALIYA ƏDALƏT!

Xocalı faciəsi nəinki Azərbaycanın, bütün dünyanın tarixində baş vermiş ən dəhşətli, ən qəddar, misli görünməmiş faciədir.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə 366-cı alayın köməkliyi ilə erməni silahlı qüvvələri tabeliyində olan qruplar, muzdlu əsgərlərlə 3 istiqamətdən Xocalıya hücum etdilər. Əslində, bu faciədən öncə də Xocalıya dəfələrlə irimiqyaslı hücumlar edilmişdir. İlk belə hücum 1988-ci il sentyabrın 18-də olmuşdur. Həmin gün Xankəndidəki nümayişdən çıxan 5000-ə qədər erməni quldurlarının bir qismi piyada, bir qismi də avtomobillərlə Xocalıya hücum etsələr də, bundan xəbər tutan sakinlər həmin hücumun qarşısını almağa və ermənilərə layiqli cavab verməyə müvəffəq olmuşdular.

1992-ci il fevralın 12-13-də Xocalı növbəti dəfə qonşu erməni kəndlərindən atəşə tutulur. Çox keçməmiş erməni hərbi qüvvələri Xankəndidən çıxarılaraq, Xocalıda yerləşdirilir. Əslində, bu yaxınlaşmaqda olan fəlakətin əlamətləri olsa da, ölkənin sarıştəsiz rəhbərləri bunu laqeydcəsinə izləyir və susurdular.

1992-ci ilin yanvar ayının 2-dən şəhərə elektrik enerjisinin verilməsi dayandırılır. Fevralın 19-da şəhər hər tərəfdən PDM-dən, iriçaplı pulemyot və avtomatlardan atəşə tutulur.

O amansız gecədə İso Xocalı sakinlərindən 613 nəfər vəhşicəsinə öldürülür, 1275 nəfər əsir və girov götürülür, 8 ailə tamamilə məhv edilir, 25 uşaq hər iki valideynini, 224 uşaq valideynlərdən birini itirir. Girov götürülənlərdən 150 nəfərin taleyindən hələ bu günədək heç bir məlumat yoxdur.

Həmin qanlı gecədə bütün dünya sözün əsl mənasında dəhşətli faciənin şahidi oldu. Heç kimə rəhm edilmədi, meyitlər təhqir olundu, əsirlər amansız işgəncələrə, əziyyətə məruz qaldı. Xocalı yerlə-yeksan edildi, Azərbaycan xəritəsindən silindi.

Bu gün bütün dünyaya "soyqırıma" məruz qaldıqlarını car çəkən ermənilərin o gecə törətdikləri qırğını, soyqırımı, vicdansızlığı heç bir sözlə ifadə etmək mümkün deyil. Xocalıya hücum zamanı şəhərin dinc əhalisinə qarşı kütləvi zorakılıq törədilib. Bu zorakılığa ilk dəfə hüquqi qiymət isə Ulu Öndər Heydər Əliyev tərəfindən verilib. 1994-cü ilin martın 1-də imzalanmış fərmanla 26 fevral ölkədə milli matəm günü elan edilib. Ümummilli Liderin 25 fevral 1997-ci il tarixli digər bir fərmanı ilə hər il fevral ayının 26-da saat 17:00-da bütün ölkə ərazisində Xocalı qurbanlarının xatirəsi 1 dəqiqəlik sükutla yad edilir.

Bu fərmanlar əslində faciənin unudulmaması üçün atılan addımlar idi.

Bu gün isə Heydər Əliyev fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərliyi altında başlanmış "Xocalıya ədalət!" beynəlxalq təbliğat-təşviqat kampaniyası uğurla davam etdirilir. Faciədən 24 il keçməsinə baxmayaraq, onu törədənlər hələ də öz layiqli cavablarını almayıblar. Bu baxımdan faciənin bütün həqiqətlərinin ictimaiyyətinə çatdırılması və günahkarların ciddi şəkildə cazalandırılması məqsədilə 2008-ci il mayın 8-də başlanan bu kampaniya dünyanın 50-dən artıq ölkəsində həyata keçirilir. Təbii ki, nə etsək də, Xocalı dəhşətini, onun yaralarını unutmaq olmaz. Bu tarixi hər zaman yad etmək, orada şəhid olmuş vətəndaşlarımızı xatırlamaq mütləqdir. Bu məqsədlə 2013-cü il fevralın 9-da kampaniya çərçivəsində Xocalı həqiqətlərini bütün çılpaqlığı ilə əks etdirən fotoların, video materialların yer aldığı sayt yaradılıb. Kampaniyaya dəstək olaraq 2014-cü ildə faciənin 22 illiyi ərəfəsində Qazaxıstanda Azərbaycan konsulluğunun köməkliyi ilə yeni internet portalı istifadəyə verilib.

Ümumiyyətlə, Xocalı həqiqətləri 5 dildə bütün dünyaya çatdırılır. 8 il davam edən kampaniya çərçivəsində dünyanın bir çox ölkələrində soyqırıma dair müxtəlif dillərdə kitablar, buklet-lər, disklər hazırlanıb, konfranslar, foto və video sərgilər keçirilib, sənədli filmlər çəkilib. Bu kitablar arasında 2 cildlik "Leylə Əliyeva: Xocalıya ədalət!" kitabı xüsusilə fərqlənir. Kampaniyanın 5 illiyi münasibətilə çap edilmiş kitabda 350-ə qədər mənbədən götürülən real faktlar yer alıb. Gərgin araşdırmalar nəticəsində meydana gələn əsərdə ingilis, türk, rus, koreya və başqa dillərdə olan internet resurslarından istifadə edilərək, faciənin ən mühüm məqamları, gizli sənədlər gerçəkliyi ilə əks olunub.

2014-cü ilin fevral ayında Braziliyada keçirilən anım mərasimində Leyla Əliyevanın portuqal dilində "Xocalı-22 il. 10 hekayə, bunlar gerçək ola bilərdi" kitabının təqdimatı da bu kampaniyanın davamı olaraq dəyərləndirilir.

Bundan əlavə, Xocalı soyqırımı haqqında Koreya dilində saytın və "facebook" səhifəsinin fəaliyyətə başlaması, Seulda ictimai nəqliyyat vasitələrinin üzərində posterlərin yerləşdirilməsi, 2011-ci ildə Almaniyanın Berlin şəhərində, Haaqada, Ankarada, Meksikanın paytaxtı Mexikoda, 2012-ci ildə isə Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda soyqırım qurbanlarının xatirəsinə abidə ucaldılması da kampaniyanın gördüyü işlərin nəticəsidir. Faciənin tanıtdırılması üçün xarici mətbu orqanlarda (məs., "Hürriyyət" qəzeti, "Free island" gündəlik qəzeti və s.) bu barədə materialların verilməsi də həyata keçirilən tədbirlərin uğurla davam etdirildiyini sübut edən faktlardandır.

Bu gün "Xocalıya ədalət!" kampaniyası dövlətimizin xarici siyasətinin ən mühüm istiqamətlərindən biridir.

Dünyanın ən əhəmiyyətli təşkilatlarından hesab olunan İslam Əməkdaşlıq Təşkilatının, həmçinin ABŞ-ın 20 ştatının, həmçinin Çexiya və Peru, Honduras parlamentləri tərəfindən Xocalı hadisəsinin faciə kimi tanınması da ölkəmizin siyasi uğurlarındandır.

Bu gün "Xocalıya ədalət!" bütün dünyanı gəzir, beynəlxalq kürsülərdən terrorçuluğa, zülmə, haqsızlığa qarşı mübarizə aparır. Böyük əzmkarlıq, gərgin zəhmət hesabına görülən işlər, cəsarətli addımlar, düşünülmüş siyasi kurs artıq öz bəhrəsini verir, erməni təbliğatı bu siyasətin qarşısında duruş gətirə bilmir. "Xocalıya ədalət!" əslində, elə "Azərbaycana ədalət!" deməkdir. Bu kampaniyaya qoşulmaq isə hər bir azərbaycanlının vətəndaşlıq borcudur.

Ümid edək ki, kampaniya bundan sonra da uğurla davam etdiriləcək və görülən işlər, həyata keçirilən layihələr tezliklə öz bəhrəsini verəcəkdir - Azərbaycan öz haqq səsini bütün dünyaya yayacaqdır!

leytenant X.Tağıyeva

OMBUDSMAN APARATININ ƏMƏKDAŞLARI DAXİLİ QOŞUNLARIN HƏRBİ HİSSƏSİNƏ BAXIŞ KEÇİRİBLƏR

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Elmira Süleymanova ilə Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Qoşunlarının Komandanlığı və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Komandanlığı arasında əldə olunan razılaşmaya müvafiq olaraq, Ombudsman Aparatının əməkdaşlarının həmin qurumların səlahiyyətli nümayəndələri ilə birgə hərbi hissələrə başçəkmələri müntəzəm qaydada davam etdirilir.

Növbəti dəfə fevral ayında Aparatın əməkdaşları-Hərbi qulluqçuların hüquqlarının müdafiəsi sektorunun müdiri Fəzail Həsənov və həmin sektorun böyük məsləhətçisi Murad Babayev Daxili Qoşunların 99713 saylı hərbi hissəsinə baxış keçiriblər. Baxışların məqsədi hərbi qulluqçuların məişət şəraiti ilə tanış olmaq, onlarla rəftar və həmin hərbi hissələrdə insan hüquqlarının müdafiəsi vəziyyətinin araşdırılması olub.

Aparatın əməkdaşları hərbi hissədə müddətli və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının yataqxanalarında yaradılmış hərtərəfli şəraitlə, əsgər və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları üçün hazırlanmış yeməkxanada yeməklərlə tanış olub, arzaq anbarlarına, tibb məntəqəsinə baş çəkiblər.

Bundan əlavə, hərbi qulluqçulara Ombudsman institutunun yaranması və səlahiyyətləri, Müvəkkilin çoxşaxəli fəaliyyəti, o cümlədən, hərbi qulluqçuların hüquqları istiqamətində gördüyü işlər barədə məlumat verilib, insan hüquqları barədə söhbətlər aparılıb, suallar cavablandırılıb.

Hərbi hissədə aparılan hüquqi maarifləndirmə, ideoloji və təlimtərbiyə işlərinin, şəxsi heyətin yüksək döyüş ruhunun və psixoloji durumunun, Vətənə sədaqət və vətənpərvərlik hissinin daha da gücləndirilməsi üçün həyata keçirilən tədbirlərin nəticələri də diqqətdə saxlanılan məsələlərdən olub.

Ümumilikdə, hərbi qulluqçular üçün yaradılmış şərait, onlarla rəftar, qida və müalicə işinin keyfiyyəti Aparatın əməkdaşları tərəfindən müsbət qiymətləndirilib.

leytenant X.Tağıyeva

HƏRBİ HİSSƏNİN İLDÖNÜMÜ QEYD OLUNUB

Fevralın 23-də 16075 saylı hərbi hissənin yaranmasının 27 illiyi münasibətilə bayram tədbiri keçirilib. Hərbi hissə 1989-cu ildə SSRİ DİN-in Daxili Qoşunlarının tərkibində Sumqayıt şəhərində əlahidə xüsusi motorlaşdırılmış milis taboru kimi yaradılıb, 1992-ci ildə milis taboru Ləğv edilərək hərbi hissə kimi fəaliyyətə başlayıb.

Hərbi hissə yarandığı gündən təqdirəlayiq xidmət yolu keçib, döyüş hazırlığının artırılması istiqamətində müsbət nailiyyətlər qazanıb.

Tədbir müstəqil Azərbaycanın qurucusu Ümummilli Lider Heydər Əliyevin və respublikamızın ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Çıxış üçün söz hərbi hissə komandiri mayor Emil Rüstəmova verilib. O, hərbi hissənin 27 il ərzində keçdiyi çətin və şərəfli döyüş yolu barədə məlumat verərək bildirib ki, hərbi hissə Qarabağ uğrunda gedən döyüş əməliyyatlarına ilk cəlb olunan hissələrdəndir. Belə ki, 1992-ci ilin mart ayının 12-də Ağdam rayonunun Papravənd kəndində ilk döyüş sınağından keçib, döyüş əməliyyatlarında şəxsi heyətin 19 nəfəri şəhid olub, 3 nəfəri isə itkin düşüb. Həmçinin qeyd olunub ki, Daxili Qoşunların ilk şəhidlərindən olan çavuş Hətəmxan Babayev və Milli Qəhrəman əsgər Ruslan Muradov məhz bu hərbi hissədə xidmət edib.

Sonra Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun hərbi hissənin ildönümü münasibətilə şəxsi heyətə ünvanladığı təbrik məktubu çatdırılıb. Təbrikdə hərbi hissənin şəxsi heyətinin Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Daxili Qoşunlara göstərdiyi etimadı doğruldacaqlarına, qoşunların qəhrəmanlıq ənənələrini davam etdirəcəklərinə əminlik ifadə olunub.

Bundan əlavə, bildirilib ki, bu gün Daxili Qoşunların şəxsi heyəti qarşıya qoyulan xidməti-döyüş tapşırıqlarını tam və keyfiyyətlə, yüksək səviyyədə yerinə yetirməyə qadirdir və şəxsi heyət xalqın, dövlətin, Vətənin mənafeyi naminə bütün xidməti vəzifələrin öhdəsindən bundan sonra da layiqincə gələcəkdir.

Mərasimdə xidmətdə xüsusi fərqlənən, yüksək peşə hazırlığı, nümunəvi intizamı ilə seçilən 48 nəfər hərbi qulluqçu hərbi hissə komandirinin əmri ilə mükafatlandırılıb.

Tədbir Daxili Qoşunların Nümunəvi-Göstərici Hərbi Orkestrinin və respublikanın tanınmış incəsənət xadimlərinin ifası ilə davam etdirilib.

leytenant N.Ağayeva

Qan ağlayır Natəvanım Şuşada,
Yol gözləyir Ələsgərim Göyçədə,
Bu zülmə dözmür Allah göydə də,
Vaxtı çatıb, marş-irəli, əsgərim,
Komandanın əmrin gözlə, əsgərim!

Yurdsuz olan, yurdu alıb əlimdən,
Uzaq düşdüm ocağımdan, külümdən,
İgid əsgər, xəbər getir elimdən,
Çal qılıncı, vermə aman, əsgərim,
Komandanın əmrin gözlə, əsgərim!

Qoyma qalsın qiyamətə qisasın,
İrəvanda bayrağımız ucalsın,
Qarabağı geri alıb qaytarsın,
İlham ilə Azərbaycan, əsgərim,
Komandanın əmrin gözlə, əsgərim!

Daha bəsdir doğma yerlər tapdandı,
Yağı düşmən qürrələndi, "şelləndi",
Aman Allah! Şəhidlərim dilləndi,
Dedi:-Vaxtdı, marş-irəli, əsgərim,
Komandanın əmrin gözlə, əsgərim!

Gölüşadam, ömrüm keçdi bu dərddə,
Göz olmadı var-dövlətdə, zinətdə,
Bəsdi qaldı Natəvanım qürbətdə,
Marş-irəli! Marş-irəli, əsgərim,
İlham ilə sən irəli, əsgərim!

Gölüşad İsmayıloğlu,
"Qızıl Qələm" media mükafatı laureatı, AJB-nin üzvü

VƏTƏNƏ OLAN SEVGİMİZ XİDMƏTİMİZDƏ DƏ ÖZ ƏKSİNİ TAPMALIDIR

Belə bir deyim var ki, istənilən insanın daxilindəki Vətən sevgisi düşmənlə bir təmas xəttində olanda və hərbi xidmətdə özünü biruzə verir. Elə məhz bu kontekstdən çıxış edərək sözün əsl mənasında üreyi Vətən sevgisi ilə döyünən və bunu bütün hallarda öz əməlində, xidmətində göstərən leytenant Amil Nəsirov haqqında danışmaq istərdim.



25031 saylı hərbi hissənin savadlı, zəkalı, nümunəvi hərbi qulluqçusu olan leytenant A.Nəsirov 1986-cı il yanvar ayının 3-də Laçın rayonunda dünyaya göz açıb. Orta təhsilini uğurla başa vuran Amil 2004-cü ildə Bakı Dövlət Universitetinin "Hüquqşünaslıq" fakültəsinə qəbul olub. 2005-2007-ci illərdə Müdafiə Nazirliyinin Qazax rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib.

2014-cü ildən Daxili Qoşunların 25031 saylı hərbi hissəsində tədris tağımının komandiri vəzifəsində xidmət edib. Hal-hazırda tədris bölüyü komandirinin tərbiyə işləri üzrə müavinidir.

Leytenant A.Nəsirov xidmətə başladığı ilk günlərdən bacarığı, məsuliyyəti və intizamı ilə həm şəxsi heyətin, həm də hissə komandanlığının dərin rəğbətini qazanır. Nizamnamələrin tələblərinə qeyd-şərtsiz əməl edən zabitimiz bilik və bacarıqlarını təkmilləşdirərək daim öz üzərində çalışır, tabeçiliyində olan hərbi qulluqçulara nümunə olmağı bacarır. Xidmətini müvafiq rəhbəredici sənədlərin tələblərinə əsasən quran gənc leytenant bölükdə tərbiyə işinin təşkilinə, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə saxlanılması üçün profilaktik tədbirlərin həyata keçirilməsinə, fərdi tərbiyə üsullarından istifadə edərək bölükdə nümunəvi hərbi intizamın olmasına nəzarət edir. Şəxsi heyətin tərbiyəsində əsas diqqəti hər bir hərbi qulluqçu ilə fərdi işə yönəldən leytenant A.Nəsirov günün nizam qaydalarına uyğun olaraq, şəxsi heyətin günə hazırlığını yoxlayır, təsdiq olunmuş məşğələ cədvəlinə əsasən məşğələlərin keyfiyyətli təşkilini təmin edir. O, xidmətin çətinliklərinə baxmayaraq bütün hərbçilərə vicdanlı olmağı, dözümlülük keyfiyyətlərini inkişaf etdirməyi arzulayır, Azərbaycan Respublikasının dövlət mənafeyini müdafiə etməyə daim hazır olduğunu, zabit adı və şərəfini hər şeydən uca tutduğunu bildirir: "Düşünürəm ki, Vətənə xidmət, dövlətə sədaqət anlayışları bir-biri ilə sıx surətdə bağlıdır. Torpağa sevgi hissləri sözdə yox, əməldə öz təsdiqini tapmalı və hər kəs ilk növbədə özündən başlamalı, işində, əməlində bunu göstərməlidir".

leytenant N.Ağayeva

Şəhidlərimiz

LAÇINDAN BAŞLAYAN DÖYÜŞ YOLU...

XX əsrin sonlarında erməni daşnaklarının torpaqlarımıza təcavüzü başlayanda digər bölgələrimiz kimi Biləsuvar rayonunun qəhrəman oğulları da silaha sarılaraq, Vətənimizin müdafiəsinə yollandılar. Biləsuvarın 122 nəfər igid oğlu bu amal uğrunda gedən döyüşlər zamanı şəhidlik zirvəsinə yüksəlib. 114 nəfər biləsuvarlı isə "Qarabağ müharibəsi əlili" statusu alıb. Daxili Qoşunların sıralarında müddətli həqiqi hərbi xidmət keçmiş cəsur döyüşçü Mübariz İbrahimov isə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. Biləsuvarın şəhidlik zirvəsinə ucalan cəsur oğullarından 13 nəfəri məhz Daxili Qoşunların hərbi qulluqçuları idi.

Belə qəhrəmanlardan biri - Daxili Qoşunların sıravi hərbi qulluqçusu şəhid Saleh Hüseynovun həyat və döyüş yolu barədə məlumat verə-cəyik.

Sıravi Saleh İsi oğlu Hüseynov 1973-cü il dekabrın 31-də Biləsuvar rayonunun Fioletovka kəndində (indiki Çaylı - A.Ə.) dünyaya göz açıb. Hüseynovlar ailəsində doğulub boya-başa çatan on üç övladdan biri idi Saleh. İsi kişinin və Dönə ananın min bir zəhmətlə böyüdüb tərbiyə etdiyi övladlarının (Bəyüxxan, Əlixan, Mübariz, Təzəgül, Əsməgül, Hafiz, Ramiz, Xanımqız, Qabil, Valeh, Şahxanım, Saleh və Gülbəniz) ən sevimlisi idi. Saleh orta təhsilini Əlimərdan Hüseynov adına doğma Çaylı kənd orta məktəbində almışdı. Bu təhsil ocağını bitirdikdən sonra, 1992-ci ilin aprel ayında Biləsuvar RHK tərəfindən hərbi xidmətə çağırılmışdı.

S.Hüseynov Vətənə olan müqəddəs borcunu Daxili Qoşunların Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissəsində "sıravi" hərbi qulluqçu kimi yerinə yetirməyə başlayıb. 1992-ci ilin noyabr ayından isə qoşunların igid döyüşçüsü kimi Laçın və Füzuli rayonlarının müdafiəsi uğrunda gedən döyüşlərdə fəal iştirak edib.

Vaxtı ilə birgə xidmət etdiyi silahdaşları onu nizam-intizamlı və nümunəvi hərbi qulluqçu kimi bu gün də böyük iftixar hissi ilə xatırlayırlar. O dövrdə Daxili Qoşunların Laçında yerləşən "N" saylı hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini olmuş polkovnik Əhliman İlmazovun qəhrəman döyüşçü haqqında söylədiyi xatirələrindən də bunu görmək olar: "Sıravi S.Hüseynovu çox yaxşı tanıyırdım. Qorxunun nə olduğunu bilməyən, yüksək nizam-intizamı ilə fərqlənən igid döyüşçülərimizdən biri idi. Laçının Sarıbaba dağında, eləcə də Fingə, Qozlu, Hacınəsər və Təzəkənd kəndlərinin müdafiəsi uğrunda gedən döyüşlərdə Saleh snayper kimi fərqlənmişdi. O, aparılan hərbi əməliyyatlar zamanı igidlik və şücaət göstərərək qarşıya qoyulmuş döyüş tapşırıqlarını yüksək keyfiyyətlə yerinə yetirib...".

HÜSEYNOV SALEH İSİ OĞLU

Daxili Qoşunların veteranı, Qobustan rayonunun Poladlı kənd sakini, ehtiyatda olan çavuş Rövşən Göyçəyev də cəsur döyüşçü ilə birgə Laçında keçən ağrı-acılı günlərini xatırlayaraq, onun əsl qəhrəman kimi xidmət etdiyini bildirdi: "Salehlə cəbhə bölgəsinə eyni gündə getmişdik. Mənim komandiri olduğum tağımda xidmət edirdi. Göy-göz, orta boylu, idmançı oğlan idi. Olduqca ciddi, cəsur və mərd döyüşçü olub. Salehlə birgə Laçın rayonunda gedən bir sıra döyüşlərdə iştirak etmişəm. O, bizim snayperimiz idi. Çox sərrast atəş açardı...

Yaxşı yadımdadır, 1993-cü ilin yanvar ayının 5-i idi. Erməni yaraqlıları hərbi texnikanın köməyi ilə Təzəkəndə hücum etmişdi. İki gün davam edən bu döyüşdə daşnak qüvvələrinin üstün olmasına baxmayaraq, Daxili Qoşunların və könüllülərdən ibarət Laçın taborunun şəxsi heyətinin qəhrəmanlığı nəticəsində düşmən canlı qüvvə və texnika sarıdan xeyli itki verərək geri çəkilməyə məcbur olmuşdu. Saleh bu döyüşdə 9 erməni yaraqlısını öldürmüş, 7-ni isə yaralamışdı. Bu döyüşdən sonra, onun igidliyi və şücaəti nəzərə alınaraq, manqa komandiri təyin edilmişdi".

R.Göyçəyev indiyədək qoruyub saxladığı cib dəftərçəsini çıxarıb, Laçında xidmət etdiyi dövrdə öz xətti ilə yazdığı qeydləri mənə göstərir. Dəftərçədə tabeçiliyində vuruşan əsgərlərin adlı siyahısı, ünvanları, eləcə də xronoloji ardıcıllıqla baş vermiş döyüşlər barədə qiymətli məlumatlar qeyd olunub. Burada diqqətimi çəkən ən maraqlı qeydlərdən biri də 1993-cü ilin martın 26-da Təzəkənddə taqımın hər bir döyüşçüsü üçün yazılmış şeir oldu. Bu şeirdə Salehin igidliyini tərənnüm edən dörd misralıq bənd də var. Şeirin iki bəndini sizə təqdim edirəm:

Biz Fingədə qardaş olduq,
Təzəkənddə qardaş olduq.
Ermənidir düşmənimiz,
Vuruşuruq ürəklə biz.

Təzə ağardı dan yeri,
Saleh aldı snayperi.
O, dağlara qalxdı,
Hələ düşmən ayılmamış...

1994-cü ilin yanvar ayında cəsur silahdaşımız S.Hüseynov qanlı döyüşlərin getdiyi Füzuli rayonuna ezam olunur və Böyük Bəhmənli, Aşağı Yağlıvənd kəndlərinin düşməndən azad edilməsində yaxından iştirak edir.

18 yanvar 1994-cü il. Füzuli rayonunun Aşağı Yağlıvənd kəndinin azad edilməsi uğrunda şiddətli döyüşlər gedirdi. Saleh bölmə komandiri kimi tabeçiliyindəki əsgərlərə birgə düşmənə sarsıdıcı zərbələr endirirdi. Əsgərlərimizin qətiyyətli hücumu qarşısında tab gətirməyən erməni daşnakları xeyli itki verərək, geri çəkilməyə məcbur olmuşdu. Lakin döyüşün sonunda düşmən artilleriyasının açdığı atəş nəticəsində Saleh ağır yaralanır və yanvarın 26-da gözlərini əbədi yumaraq, şəhidlik zirvəsinə yüksəlir...

Vətən uğrunda canını qurban verən igid silahdaşımız sıravi S.Hüseynov Bakı şəhərində 2-ci Fəxri Xiyabanda dəfn olunub. Çaylı kəndindəki mərkəzi küçə şəhid S.Hüseynovun adını daşıyır.

Şəhid S.Hüseynovun həyat və döyüş yolundan bəhs edən yazılara görkəmli ziyalımız Mirzə Müşfiqin Biləsuvar şəhidlərindən bəhs edən "Şəhidlik bir səadət ki..." adlı kitabında rast gəlinir. Həmçinin Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəsmi internet saytında onun haqqında məlumat verilib.

Qeyd edək ki, Saleh Hüseynovun adı Daxili Qoşunların Arxivində saxlanılan Daxili Qoşunlar üzrə "1992-1994-cü illərdə gedən döyüş əməliyyatları nəticəsində şəhid olmuş hərbi qulluqçuların siyahısı"nda 197-ci sıra nömrəsi ilə qeydə alındığı və Füzuli rayonunda həlak olması göstərilib.

Saleh kimi igid silahdaşlarımız Daxili Qoşunların tərkibində xidmətlərini bu gün də şərəflə davam etdirirlər. Sıralarında vətənpərvər oğulların xidmət etdiyi Azərbaycan Ordusu işğal altında olan müqəddəs torpaqlarımızı düşməndən azad etməyə hər zaman hazırdır.

Allah şəhidlərimizə rəhmət eləsin!

kapitan A.Əhmədov,
Mənəvi-psixoloji hazırlıq şöbəsində muzey rəhbəri

KOMENDANT BÖLÜYÜ HƏR ZAMAN BİR ADDIM ÖNDƏDİR

Ötən ilin xidməti-döyüş fəaliyyətinin yekunlarına görə birinciliyi qazanan və nizam-intizama ciddi riayət edən bölüklərdən biri 67987 saylı hərbi hissənin komendant bölüyüdür.

Hərbi hissənin, döyüş bayrağının, mühüm əhəmiyyətli hərbi obyektlərinin etibarlı mühafizə və müdafiəsini təşkil edən komendant bölüyünün şəxsi heyəti hər zaman sayıqlığı ilə seçilir. Çünki xidməti-döyüş tapşırığının yerinə yetirilməsinə fiziki cəhətdən sağlam, güclü və mənəvi-psixoloji durumu qənaətbaxş olan hərbi qulluqçular cəlb olunur.

Hərbi hissədə qarşıya qoyulan tapşırıqları uğurla yerinə yetirən, hərbi intizamın möhkəmləndirilməsi üçün səylə çalışan komendant bölüyünün komandiri kapitan Rahib Cəfərov gündəlik olaraq bölüyün şəxsi heyətinin qarovul, bölük naryadı, nəzarət buraxılış məntəqəsi (NBM) və qərargah xidmətlərinə cəlb olunduğunu bildirdi. Qeyd etdi ki, qarovul xidmətinə cəlb olunan hərbçilərin seçilməsi xüsusilə nəzarətdə saxlanılır. Postların vaxtlı-vaxtında dəyişilməsinə, silahın doldurulub-boşaldılması zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunur.

Bölük komandiri hərbi qulluqçular qarşısında qoyulan tələblər barədə də məlumat verdi. Şəxsi heyətlə işləməyin çətin, eyni zamanda məsuliyyətli olduğunu bildirərək, üzərinə düşən vəzifələrin icrasına vicdanla yanaşdığını qeyd etdi: "Komendant bölüyü olaraq əsas vəzifəmiz hərbi hissənin daxilində yerləşən hərbi obyektlərin etibarlı mühafizə və müdafiəsini təmin etməkdir. Komandir heyəti tərəfindən tapşırıqlar dəqiq və vaxtında yerinə yetirilir, sağlam kollektivin yaradılması həmişə hissə komandanlığının diqqət mərkəzində saxlanılır".

Şübhəsiz ki, bütün bunlar bölüyün birincilik qazanmasının əsas səbəbləridir. Bölüyün gündəlik fəaliyyətində nəzərdə tutulan tədbirlər hərbi hissə komandiri tərəfindən təsdiq olunmuş gün nizamına əsasən vaxtlı-vaxtında həyata keçirilir. Məşğələlərdə hərbi qulluqçuların nəzəri və praktiki billiklərinin artırılmasına xüsusi önəm verilir. Fiziki hazırlıq və atəş hazırlığı məşğələlərində isə əsas diqqət şəxsi heyətin dözümlülüyünün artırılmasına, müəyyən olunmuş normativlərin hərbi qulluqçular tərəfindən keyfiyyətlə yerinə yetirilməsinə, atış vərdişlərinin artırılmasına yönəldilir.

Həmçinin şəxsi heyətin mənəvi-psixoloji durumunun yüksəldilməsi, yoldaşlıq münasibətlərinin qorunub saxlanılması məqsədilə tərbiyə işi tədbirləri keyfiyyətlə həyata keçirilir. Kapitan R.Cəfərov bu işdə bölük komandirinin müavini leytenant Məhəmməd Məhərrəmovun xidməti fəaliyyətini xüsusilə vurğuladı.

Görülən işlərin nəticəsidir ki, şəxsi heyət qəfləton qarşıya çıxan tapşırıqların dəqiqliklə yerinə yetirilməsinə nail olur.

leytenant N.Ağayeva

DAXİLİ QOŞUNLARIN VETERANLARI HƏRBİ-VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİ PROSESİNDƏ...

Bu gün Daxili Qoşunların veteranlarını birləşdirən ictimai təşkilat olaraq fəaliyyət göstərən Daxili Qoşunların Veteranlar Şurası öz üzərinə düşən vəzifələri şərəflə yerinə yetirir. Qurumun tarixinə nəzər salsaq, 2005-ci ildən bu günə kimi ictimai qurumun nə qədər məhsuldar işlədiyi barədə müəyyən təsəvvür yaranar.

Məlum olduğu kimi, Veteranlar Şurasının fəaliyyətinin əsas məramını gənclərin, Daxili Qoşunların şəxsi heyətinin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunması təşkil edir. Bu məqsədlə, onlar mütəmadi olaraq Daxili Qoşunların Bakıda və regionlarda yerləşən hərbi hissələrində şəxsi heyətlə görüşlər keçirirlər. Həmin görüşlərdə genc əsgərlərə Daxili Qoşunların yaranma tarixi, şərəfli döyüş yolu, inkişaf mərhələləri, ictimai asayişin keşiyində mübariz xidməti haqqında dolğun məlumatlar çatdırılır, xidmətlə bağlı dəyərli tövsiyələr verilir.

Bu yaxınlarda işıq üzü gören "Daxili Qoşunların veteranları hərbi-vətənpərvərlik tərbiyəsi prosesində" adlı kitabda da Veteranlar Şurasının çoxşaxəli fəaliyyətinin k